**N.T.MİRZƏYEVA**
*doktorant*
*e-mail: necibemirzayeva1@gmail.com*

**Bakı Slavyan Universiteti**
(Bakı şəh., S.Rüstəm küç., 25)

# HƏRBİ JURNALİSTİKA VƏ YAZIÇILAR

***Açar sözlər***: *publisistika, müharibə, pasifizm, məqalə, yaradıcılıq*
***Ключевые слова***: *публицистика, война, пацифизм, статья, творчество*
***Key words***: *journalism, war, pacifism, article, creativity*

XX yüzilliyin rus və Qərbi Avropa ədəbiyyatında publisistika nəzəriyyəsinin inkişafı daha çox "publisistika" anlayışının birmənalı şəkildə şərh olunmaması, tarixi və ədəbi prosesin janr xüsusiyyətləri, həmçinin bir sıra digər səbəblərlə bağlı olan çoxsaylı müzakirələrlə müşaiyət olunurdu. Hərbi publisistika bir zamanlar ədəbiyyat nəzəriyyəsində ciddi yer tutan ədəbi-tənqidi publisistika janrının şəklini dəyişmiş formasıdır. Əlbəttə, gündəliklər, memuarlar və ya xatirələr vahid sənədli janrın tərkibinə daxil olduğu kimi bu janr da həmin əsaslarla mövcud olmaq hüququna malikdir. Hərbi publisistika adi, mülki publisistikadan ("sülh zamanında") fərqli olaraq müəyyən hadisələrlə, daha dəqiq desək, konket bir dövrlə sıx bağlı olur. "Qaynar nöqtələr" xaricində isə hərbi publisistika solğun və süni görünür.

Bu fakta müasir tənqidçi-ədəbiyyatşünas Y.P.Proxorov diqqət yetirmişdir. O, qeyd edirdi: "*Hər bir dövrün publisistika qarşısında öz tələbləri vardır... Cəmiyyətimizdə (*rus cəmiyyətində – M.N.*) publisistika sənətinin xüsusiyyətləri onun inkişafının hər bir mərhələsində ümumi qanunauyğunluqlara baxmayaraq özünü müxtəlif cür büruzə verir və bu xüsusiyyətlər unikal hadisələrə səbəb olur*" (1).

Beləliklə, əvvəllər ictimai qanunlar üzrə mütəxəssislər publisist adlandırılırdı. Bu sözün müasir mənaya yaxın olan ilk mənalarına rus demokratlarının əsərlərində rast gəlinir. XIX əsrin birinci yarısında "hərbi publisistika" termini mövcud deyildi. Əgər hərbi məqalələrdən söz gedirdisə, o zaman tənqidçilər ona ümumi publisistikanın bir qolu kimi yanaşırdılar. Rus tənqidçisi V.Q.Belinski qeyd edirdi ki, "publisist" sözü "publika", yəni "tamaşaçı" sözündən əmələ gəlmişdir. Belinskiyə görə publisistin fəaliyyəti mühüm ictimai problemlərin qoyuluşu vasitəsilə tamaşaçıya göstərdiyi təsirlə ölçülür. Bu məsələdə Belinski xüsusi diqqəti publisistik məlumatın ünvanlandığı, mütəxəssis olmayan, lakin geniş oxucu dairəsindən təşkil olunan insanlara ayırırdı. N.M.Karamzinin yaradıcılığı ilə bağlı V.Q.Belinski "publisizm" terminindən "kütləvilik" sözünün sinonimi kimi (yəni, "geniş istifadə dairəsinə malik") istifadə edirdi. (2). Bizim üçün maraq kəsb edən bu termin digər demokrat və mütəfəkkirlərin tənqidi məqalələrində də hərbi çalarlardan başqa bütün müxtəlif çalarlarda – ictimai, sosial, sırf siyasi, bədii, sənətşünaslıqda və s. istifadə olunurdu. N.A.Dobrolyubov "Keçən ilin ədəbi xırdalıqları" adlı əsərində publisistikanı ictimai-siyasi məsələlər üzrə ədəbiyyat kimi nəzərdən keçirir. O, bu məqalədə hərbi publisistika haqqında, ümumiyyətlə, danışmır, lakin onu bədii ədəbiyyatdan, daha doğrusu, poeziyanı elmdən ayırır. XIX əsrin ikinci yarısında leksikoqrafiyada ilk dəfə olaraq 1864-cü ildə "publisistika" sözü qeydiyyatdan keçirilmişdi. F.Tollun "Stolüstü lüğəti" publisistika sözünün aşağıdakı tərifini təklif edir: "*Publisistika – siyasi və ictimai məsələlərdən xəbər verən ədəbi əsərlərdir*" (3, s. 235).

Ədəbi-tənqidi və bədii publisistika məhdudiyyət tanımır: yazıçı ona maraqlı olan, bir tərəfdən qəhrəmanlıq, digər tərəfdən isə torpaqların işğalı, təcavüzkarlığın tez-tez rast gəlinmədiyi istənilən bir mövzunu seçə bilər. Hərbi publisistikada isə əksinə, müəlliflərin bütün diqqəti müəyyən obyektlərə cəlb olunmuş olur. Məsələn, E.Heminquey, K.Simonov və

digər bütün mütərəqqi hərbi publisistlər üçün o dövrün publisistikasında əsas mövzu vətənin müdafiəsi mövzusu idi. Amerikalı yazıçı I Dünya müharibəsi dövründə müharibəni başlayanların müdafiəsinə qalxa bilməzdi. Buna görə də öz məqalə və oçerklərində, onun bioqrafı Karlos Beykerin iddiasına görə, Heminquey ağrı və acıyla "itirilmiş nəsillər" haqqında yazırdı. Bu problem üzrə hərbi publisistikadan daha çox povest və romanları əhatə edən tənqidi-monoqrafik ədəbiyyat daha genişdir. Hamıya məlum olan bir şeyi yenidən danışmağa ehtiyac yoxdur. Yalnız E.Heminqueyin öz vətəninə olan dərin bağlılığını qeyd etmək istərdik. O, kökündən qoparılmış, öz doğmaları və yaxınları ilə əlaqələrini itirmiş nəsillər haqqında yazırdı. Yazıçının fikrinə görə Amerikanın faciəsi məhz bunda idi. Rus sovet ədəbiyyatı bu cür kəskin problemlə üzləşməmişdi. Lakin vətən mövzusu, məlum səbəblərdən, K.Simonovun hərbi publisistikasının mərkəzində dayanırdı. Onun bir çox oçerk, məqalə, yazışmalarında və qısa məlumat xülasələrində sovet insanlarının maddi dəstəkdən daha çox mənəvi dəstəyə ehtiyacları olduğu qeyd edilirdi. Hərbi epizodların birbaşa iştirakçısı olmuş və ya (nadir hallarda) digər iştirakçıların xatirələrinin izi ilə yazan publisistin sözü faşizmə qarşı mübarizədə mənəvi silahlardan biri idi. Bu baxımdan K.Simonov publisistikasının məsuliyyətliliyini və nəticəliliyini qiymətləndirməmək mümkün deyil.

İstənilən müharibə, aparıcı hərbi jurnalistlərin fikrinə görə, öz fəlakətli nəticələri ilə ən böyük şər, bəladır. Publisistin vəzifəsi – şərə, bəlaya çarə tapmaqdır. Bir sıra müasir tədqiqatçılar hərbi publisistikanın tərifini verərkən nəzərə çarpacaq üstünlüyün daha çox konseptuallıq və məzmunluluq əlaqəsinin olmasında görürlər. Y.A.Lazebnik bədii publisistikada obrazın müstəqil dəyərini qeyd edir: "*Məhz obrazlılıq onu təşkil edən ən mühüm elementlərdən biridir. Lakin hərbi publisistikada müəllif, bir qayda olaraq, bədii publisistika prinsiplərinin əsaslarını pozaraq yaradıcı düşüncə tərzindən uzaqlaşmağa çalışır. Burada daha çox publisistik obrazın xüsusi məntiqi-səmərəli bir başlanğıca tabe olması təsdiqlənir*" (4, s. 16).

Bununla yanaşı, hərbi publisistika da bədii ədəbiyyatın bir hissəsidir. Hər halda bunu, şübhəsiz ki, E.Heminqueyin və K.Simonovun oçerk, məqalə, yazışmalar, rəy və reportajları təsdiq edə bilər. Bu cür əlaqə tarixən yaranmışdır. "Rus hərbi publisistikası bədii ədəbiyyatın "qeydiyyatından keçmiş" "kobud, kələ-kötür, lakin hər halda tanınan və qəbul edilən bir bölməsidir" deyən V.V.Uçonova haqlıdır (5, s. 10).

Hərbi publisistikanı bədii roman ədəbiyatından fərqləndirən meyarları müəyyən edərkən birincinin (hərbi publisistikanın) spesifik vəzifələrini və funksiyalarını, daha dəqiq desək, reallığı ifadə etmə xüsusiyyətlərini nəzərə almaq lazımdır. Həm rus, həm də qərb yazıçılarının hərbi oçerk və məqalələrində sənədlilik publisistikanın bütün digər növləri və formalarından daha böyük, bənzərsiz rol oynayır. Bunula yanaşı, əsl hərbi publisistikanı bu və ya digər formada bədii ədəbi əsərlərdə özünü büruzə verən və bədii fenomen kimi çıxış edən publisistlik anlayışından fərqləndirmək lazımdır. Tənqidçi L.A.Meşkova bu fenomeni "*poetikanın özünəməxsus kateqoriyası, əsərdə müəllif sözünün açıq şəkildə təcəssümü*" adlandırır (6, s. 40). Bu açıqlıq qismən də olsa, K.Simonov, E.Heminquey və müxtəlif millətlərdən olan digər yazıçıların hərbi publisistikasında da mövcuddur. Lakin o, obrazlılıq baxımından poetikanın amilinə çevrilə bilməz, çünki hərbi məqalələrdə bədii uydurma tarixi faktlardan uzaqlaşmaqdır. Bu isə hərbi publisistikada yolverilməz qüsurdur.

Hərbi publisistika jurnalistika ilə sıx bağlıdır. Peşəkar jurnalist məktəbi Heminqueyin sülh dövründəki publisistikası və onun hərbi publisistikasında böyük rol oynadı. K.Simonov üçün jurnalistika hərbi mövzularda olan yaradıcılığının mühüm mərhələsi idi və bu yaradıcılıq onun povest və romanları ilə paralel olaraq inkişaf edirdi. Bunlar bir-birindən ayrılmaz anlayışlardır.

Bu baxımdan bütün dövri mətbuat janrlarının materialları publisistikanın tərkibinə daxildir və hərbi jurnalistika ümumi mənada publisistikanın bir hissəsini təşkil edir. Digər tərəfdən (geniş olmayan mənada) hərbi publisistika qəzet və jurnal çıxışlarının bir növüdür, həmçi-

nin jurnalistikanın sözün əsl mənasında bir hissəsi, M.S.Çerepaxovun da qeyd etdiyi kimi, "*jurnalistikanın ağır artilleriyasıdır*" (7, s. 24).

Lakin hərbi publisistika jurnalistika ilə eynilik təşkil etmir. Bu cür yanaşmanın doğru olduğunu sübut etmək cəhdləri, demək olar ki, yüz il bundan əvvəl olmuşdu. O zamanlar nəzəriyyəçilərin "informasiya və hərbi publisistika arasındakı publisistikaya kölgə salan, faktın təbliğatın təsir vasitəsi kimi istifadə olunmasını məhdudlaşdıran maneəni məhv etmək" çıxışları birmənalı səslənirdi.

Əhəmiyyətli sayda qəzet və jurnal nəşrlərinin, həqiqətən də, publisistik keyfiyyətə malik olmasına baxmayaraq indiki dövrümüzdə jurnalistikanın tamamilə hərbi publisistika ilə eyniləşdirilməsinin mümkünsüzlüyü aydın nəzərə çarpır. Əgər funksional aspektdən yanaşılarsa, bunu görmək o qədər də çətin olmaz. Olduqca aydın görünür ki, hərbi publisistikada informasiya funksiyası ikinci plana keçir, burada əsas funksiya xəbərin daha inandırıcı formada çatdırılmasıdır. İşin mahiyyəti ondan ibarətdir ki, XX yüzillikdə daha böyük döyüşlər haqqında məlumatlar teleqraf, digət texniki və ya kəşfiyyat vasitələri ilə müəyyən müddət ərzində xalq kütlələrinə çatdırılırdı. E.Heminquey və K.Simonovun, həmçinin digər hərbi jurnalistlərin əsgər və qərargah rəhbərinin də bildiyi hadisəni yenidən danışmalarına ehtiyac yox idi. Əslində başqa şeyə ehtiyac duyulurdu: hərbi oçerk və məqalələri xəbərin inam yaratmaq metodu kimi istifadə olunduğu bir bəyannaməyə çevirmək. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı şablon ifadə deyildi. O, düşmənə qalib gəlməyə çağırırdı, bu qələbəyə, mübarizənin gücünə və ədalətliliyinə olan inama dəstək verirdi. Qəhrəmanlıq əməllərinin polemik informasiya mənbələrində işıqlandırılması bu şüarı daha da canlandırırdı. Yuxarıda adları qeyd olunan rus və Qərb yazıçıları, publisistləri öz qələmlərini qılınca çevirmişdilər. Hərbi jurnalist üçün inandırmaq – insanların emosiyalarına təsir göstərən, onların mənəvi ruhunu yüksəldən və bununla da qələbəni yaxınlaşdıran ən yaxşı üsullardan biridir. M.Y.Koltsov əbəs yerə hərbi publisistikanı "polemik və başdan-ayağa qərəzkar janr" adlandırmamışdı (8, s. 110).

Bəzən tənqidi fikirdə və ya elmi məhsulda dərin kök salmış nəzəriyyə özünü müharibədə, ondan fərqli olan real həyatda doğrultmurdu. Bu zaman təcrübə öz sözünü deyirdi. Hərbi publisistikanın yüksək səviyyəyə malik olması onunla izah olunur ki, publisistika janrında böyük təcrübə toplanmışdı. E.Heminquey I Dünya müharibəsinin faciəvi hadisələrinə, K.Simonov və başqaları 1941-ci ilin hadisələrinə az da olsa, hazırlıqlı idilər. Məsələn, gənc K.Simonov 1941-ci ilə qədər ədəbiyyat və incəsənət haqqında məqalələr yazırdı. Bundan əlavə o, hərbi jurnalist kimi Monqolustanın Xalkin-Qol qaynar nöqtəsində də olmuşdu. Keçmiş illərin təcrübəsi təkcə K.Simonova deyil, həm də digər rus yazıçılarına hadisələri müqayisə etməyə, müəyyən qanunauyğunluqları üzə çıxarmağa və son nəticədə, artıq xalqın ağır sınaqları dövründə hərbi publisistikanı ədəbi cəhətdən daha yetişkin, düşünülmüş, geniş auditoriyanın tələblərinə cavab verən səviyyəyə çatdırmağa imkan verirdi. Hətta ölkənin ali hərbi rəhbərliyi də jurnalistlərin müəyyən məsləhətlərini qəbul edir və öz planlarında düzəlişlər edirdi.

Hərbi publisistikanın real həyatı daha geniş, əhatəli şəkildə əks etdirməsinə diqqət yetirmək vacibdir. Rus yazıçılarının diqqət mərkəzində sıravi insanların taleləri, mühüm döyüşlərin inkişafı, arxa cəbhədəki qəhrəmanlıq mübarizəsi, müttəfiqlərin fəaliyyəti, faşistlərin zülmü və bir çox başqa şeylər dururdu. Hərbi publisistika qəhrəmanlıq salnaməsi, sovet xalqının mənəvi yenilməzlik güzgüsü idi. Beş il davam edən müharibə müddətində hərbi publisistika bu və ya digər müəllifin antifaşist dünyagörüşünün formalaşmasını müşahidə etməyə, onun fikir və baxışlarını olduqca aydın şəkildə müəyyən etməyə imkan verirdi. K.Simonov, A.N.Tolstoy, İ.Q.Erenburq, L.Leonov, A.Fadeyev, M.Şoloxov, V.Qrossman, V.Vişnevski, B.N.Polevoy, N.S.Tixonov və başqa yazıçıların yazdıqları ən yaxşı əsərlər qəzet və jurnallarda çap olunduqdan sonra ertəsi gün yoxa çıxmır, əksinə artıq müharibədən sonra da ayrı-ayrı məqalələr toplusunda nəşr olunmaqda davam edirdi.

## Ədəbiyyat


1. Прохоров, Е.П. Искусство публицистики / Е.П.Прохоров, Москва: Художественная литература, 1984, 199 с.
2. Белинский, В.Г. Собрание сочинений: (в XIII томах). Статьи. Публицистика. / В.Г.Белинский, Москва: Художественная литература, 1939. т. XI, 377 с.
3. Настольный словарь для справок по всем отраслям знания: (в 3-х томах) / Издание Ф. Толля. – Санкт-Петербург, – 1864. Т. 3. – 302 с.
4. Лазебник, Е.А. И мысли, и эмоции // Москва, Советская печать, 1965, № 8, с. 10-18.
5. Учёнова, В.В. Актуальные проблемы теории публицистики // Москва, Вестник Московского университета. Серия 10. Журналистика, 1975. № 3, с. 9-12.
6. Мешкова, Л.А. К спорам о публицистичности в художественной литературе // Москва, Вестник Московского университета. Серия 10 Журналистика, 1988. № 2, с. 37- 47.
7. Черепахов, М.С. О тенденциях развития жанров советской публицистики //Москва, Вестник Московского университета. Серия 10, Журналистика, – 1964. №1, с. 23-39.
8. Кольцов, М.Е. Писатель в газете / М.Е.Кольцов, Москва: Просвещение, 1961, 231 с.


**Н.Т.Мирзоева**

**Военная публицистика и писатели**

***Резюме***

В статье исследуются функции и задачи военной публицистики – как одно из направлений художественной публицистики, которое в свою очередь становится более актуальным в годы войны. Анализ сделан на основе материалов опубликованных русскими и западными писателями ведущих пресс-органов того времени. Здесь, в первую очередь, рассматриваются взгляды и подходы российских критиков и литературоведов касательно публицистики. В то же время, на западе и в Америке интерес вызывают разные подходы западных критиков к понятию военной публицистики.

Этапы исторического развития публицистики в военные годы, которые ценятся, как неотъемлемая часть литературно-художественного творчества своеобразны. При определении критериев, отличающих военную публицистику от художественной, необходимо учитывать специфические задачи и функции первой (военной публицистики), а точнее, особенности выражения действительности. В военных очерках и статьях, как русских, так и западных писателей, документация играет большую и своеобразную роль, чем все остальные виды и формы публицистики.

Актуальна и мысль о том, что военная публицистика связана с журналистикой. Некоторые рассматривают военную публицистику, как форму газетно-журнального репортажа, а также как часть журналистики, как указывает российский критик М.С. Черепахов, это «тяжелая артиллерия журналистики». Сегодня очевидна невозможность полного отожествления публицистики с военной журналистикой. Если подойти к этому вопросу с функциональной точки зрения, то это не так сложно заметить. В военной публицистике информационная функция отходит на второй план, где основная цель состоит в том, чтобы более убедительно донести сообщение.

**N.T.Mirzayeva**

**Military journalism and writers**

***Summary***

The article analyzes the functions and tasks of military journalism, which is a branch of fiction journalism and became more relevant during the war years. The analysis is based on the materials of Russian and Western writers published in the leading media of that time. First of all, the views and approaches of Russian critics and literary critics on journalism are considered. At the same time, in the West and in America, different approaches of Western critics to the concept of military journalism also arouses interest.

The historical-development stages of military journalism, which is valued as an integral part of literary and artistic creativity, are unique in the war years. When defining the criteria that distinguish

military journalism from fiction, it is necessary to take into account the specific tasks and functions of the former (military journalism), or more precisely, the features of expressing reality. In the military essays and articles of both Russian and Western writers, documentary plays a greater and more unique role than all other types and forms of journalism.

The idea that military journalism is related to journalism is also relevant. Some see military journalism as a form of newspaper and magazine reporting, as well as part of journalism, as Russian critic M.S. Cherepakhov points out, "heavy artillery of journalism." Today, the impossibility of fully equating journalism with military journalism is obvious. If approached from a functional point of view, it will not be so difficult to see.

*Rəyçi: filol.f.d. X.A.Abbasova*

*Redaksiyaya daxil olub: 10.05.2022*